# YAP Gənclər Birliyi Gənclər Gününü qeyd etdi

## Əli Əhmədov: Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi gənclik hərəkatının ön sıralarında gedən mühüm qüvvədir










**Yanvarın 30-da "Kempinski Badamdar" otelində Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin 2015-ci ildəki fəaliyyətinin yekunları və 2 fevral-Gənclər Günü münasibətilə tədbir keçirildi. Mərasimdə əvvəlcə ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin gənclərlə bağlı maraqlı fikirlərini əks etdirən, həmçinin YAP Gənclər Birliyinin 2015-ci ildəki fəaliyyətinə həsr olunan videoçarxlar nümayiş etdirildi.**



Tədbirdə çıxış edən Milli Məclisin birinci vitse-spikeri, YAP Siyasi Şurasının üzvü Ziyafət Əsgərov YAP Gənclər Birliyinin ötən dövrdəki fəaliyyətini yüksək dəyərləndirdi. Bildirdi ki, təşkilat keçən 20 ildə fəallığı ilə seçilib. Onun sözlərinə görə, partiyanın gəncləri ölkənin ictimai-siyasi həyatında fəal iştirak edirlər. Z.Əsgərov bu günlərdə Prezident İlham Əliyevin gənclərlə keçirdiyi görüşün əhəmiyyətini vurğuladı, dövlət başçısının qarşısında duran vəzifələrdən danışdığını, dünyada baş verən hadisələri ətraflı təhlil etdiyini dedi: "Bu gün ölkəmizə qarşı bizi istəməyən qüvvələr tərəfindən təzyiqlər edilir, ikili standartlar tətbiq olunur. Azərbaycan xalqı, ümumilikdə ölkə gəncliyi daha çevik olmalı və bizə qarşı yönələn məkrli əməllərə vaxtında cavab verə bilməlidir. Beynəlxalq hüquq böyük dövlətlər üçün məşğuliyyət, kiçik dövlətlər üçün məhdudiyyətdir. Bunu hər kəs bilməlidir və hər bir Azərbaycan gənci işlədiyi sahədə bilikli olmalıdır. Ölkəmizə qarşı aparılan ikili standartlar bizim ümidimizi azaltmamalıdır. Bu gün Azərbaycan güclü, inkişaf etmiş ölkədir. Azərbaycanın güclü iqtisadiyyatı, ordusu və müdrik siyasi rəhbəri var."

Milli Məclisin vitse-spikeri, YAP İdarə Heyətinin üzvü Bahar Muradova YAP Gənclər Birliyinin hər birimiz üçün doğma olduğunu vurğuladı: "Biz Azərbaycanın güclü və suveren







dövlət olmasına inanaraq bu partiyaya qoşulmuşuq və yola çıxmışıq. Yolumuzu ulu öndər Heydər Əliyevin parlaq ideyaları işıqlandırıb. Bu ideyalar bizi Azərbaycan naminə fədakarlığa və qəhrəmanlığa ruhlandırıb və bu gün də ruhlandırır. Azərbaycan sürətli inkişaf yolu keçib. YAP bu inkişaf prosesinin önündə gedən, ictimai, iqtisadi tərəqqinin, dövlətimizin möhkəmləndirilməsinin, dövlət quruculuğunun müasir standartlara uyğunlaşdırılmasının hərəkətverici qüvvəsi kimi çıxış edib. Bu prosesdə iştirak Azərbaycanın vətəndaşları üçün əsl siyasi məktəb olub."

B.Muradovanın sözlərinə görə, YAP Gənclər Birliyi Azərbaycan gənclərini ictimai-siyasi fəaliyyətə hazırlayan təşkilatdır: "Bu təşkilatın sıralarında yetişən, mətinləşən, Azərbaycan uğrunda fədakarlığa hazır olan gənclərimiz məhz YAP Gənclər Birliyində formalaşır, əsl siyasi məktəb keçirlər. Bu gün gənclər müxtəlif dövlət və hökumət qurumlarında, o cümlədən Milli Məclisdə təmsil olunur, YAP-ın və dövlətimizin qarşısında duran vəzifələrin yerinə yetirilməsində də yüksək fəallıq göstərirlər. Hər bir dövlətin qarşısında duran vəzifələrdən biri də ölkənin inkişafını təmin etməklə yanaşı, gənc nəslin sağlam ruhda yetişməsinə, dövlət quruculuğu işinə, ictimai-siyasi həyata cəlb olunmasına imkan yaratmaqdır. Bu baxımdan Azərbaycanda gənclər üçün hər cür şərait yaradılıb. Azərbaycan gəncləri sabaha böyük ümidlərlə baxırlar və onların fəaliyyətini istiqamətləndirən Yeni Azərbaycan Partiyasının sıralarında vahid amal ətrafında sıx birləşiblər."

YAP Gənclər Birliyinin fəal üzvləri Arzu Həsənzadə və Elman Aslanov dövlətin gənclər siyasətindən, gənclərə göstərilən diqqət və qayğıdan danışdılar.

Mərasimdə çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyasının sədr müavini-icra katibi Əli Əhmədov YAP Gənclər Birliyinin üzvlərini, həmçinin bütün gəncləri bayram münasibətilə təbrik etdi. Bildirdi ki, gənclər ölkənin ictimai-siyasi həyatında yaxından iştirak edir və onlar fədakar fəaliyyətləri ilə Azərbaycanın inkişafına öz töhfələrini verirlər. Bu gün dövlət tərəfindən gənclərin inkişafına hər cür şərait yaradılıb. Gənclər isə bu şəraitdən istifadə edərək yüksək bilik və bacarıq əldə etməklə gələcəkdə dövlətimizin inkişafı üçün daha böyük uğurlar qazana biləcəklər."

Ə.Əhmədov qeyd etdi ki, ümummilli lider Heydər Əliyev tərəfindən təsis olunan 2 fevral -Gənclər Günü gənclik hərəkatının inkişafına mühüm töhfə verib: "Bu gün gənclərimiz ölkəmizin həyatında fəal iştirak edir, qazandıqları uğurlarla təkcə valideynlərini, yaxınlarını deyil, eyni zamanda, üzvü olduqları qurumları, o cümlədən Yeni Azərbaycan Partiyasını, bütün cəmiyyətimizi və dövlətimizi sevindirirlər. Gənclərimizin inkişafı, nailiyyətləri və əldə etdikləri uğurlar bizim hər birimiz üçün qürur mənbəyinə çevrilir. Bugünkü gənclik Azərbaycanın gələcəyinin bariz ifadəsi və təsdiqi sayıla bilər."

⇨ Davamı 9-cu səhifədə







# YAP Gənclər Birliyi Gənclər Gününü qeyd etdi

## Əli Əhmədov: Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi gənclik hərəkatının ön sıralarında gedən mühüm qüvvədir



⇨ Əvvəli 8-ci səhifədə

Baş nazirin müavini bildirdi ki, YAP Gənclər Birliyi gənclik hərəkatının ön sıralarında gedən mühüm qüvvədir: “Ümummilli lider Heydər Əliyevin yaratdığı və bu gün Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının 667 min nəfər üzvü var ki, onların 40 faizi gənclərdir. Bu təxminən 260 minə qədər gənc deməkdir. Əlbəttə ki, bu böyük güc deməkdir. Hesab edirəm ki, Azərbaycan tarixində YAP Gənclər Birliyi qədər böyük bir siyasi gənclər təşkilatı olmayıb. Burada çox fədakar, Vətənini, dövlətini sevən, Heydər Əliyev ideyalarına sadiq olan, Prezident İlham Əliyevin siyasətini dəstəkləyən gənclər birləşib. Biz YAP Gənclər Birliyinin fəaliyyətini yüksək qiymətləndiririk. Partiyamız gənclərə hər zaman dəstək verir və bunu davam etdirəcək.”

YAP-ın sədr müavini-icra katibi əlavə etdi ki, ulu öndər Heydər Əliyevin gənclər siyasəti Azərbaycanın mövcud imkanlarından istifadə edərək gənclərimizin daha mükəmməl şəkildə formalaşmasına, gələcəyin layiqli vətəndaşı kimi yetişmələrinə səfərbər edilməsindən ibarət olub. 2 fevral Gənclər Gününün təsis olunmasından bu günə qədər keçən illər ərzində Azərbaycanda müasir gəncliyin inkişafı üçün böyük işlər görülüb: “Təbii ki, bu işlərin əsasını Heydər Əliyev ideyaları təşkil edir. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin də əsasında dayanan bu ideyalar gənclər üçün daha geniş imkanların yaradılmasından ibarətdir. Azərbaycanın inkişafı və artan imkanları gənclərlə bağlı siyasətimizin daha əhatəli şəkildə həyata keçirilməsi üçün əlavə imkanlar yaradır. Bu gün ölkəmizdə layiqli gənclik formalaşıb. Azərbaycan gəncliyi yüksək biliklərə yiyələnməklə, müasir dünya görüşünə sahib olmaqla, eyni zamanda, azərbaycançılıq ideyalarına yiyələnməklə ölkəmizin layiqli vətəndaşları kimi yetişirlər. Biz Azərbaycanın gələcəyini bu gün formalaşan, gələcəyə ümidlə baxan və özünü gələcəyə hazırlayan gənclərdə görürük. Təbii ki, hər bir xalqın gələcəyi gənclərlə bağlıdır. Bu mənada biz də Azərbaycanın gələcəyini ümummilli lider Heydər Əliyev tövsiyələrinə istinad edərək bugünkü ölkə gəncləri ilə bağlayırıq. Həqiqətən, bütün parametrləri ilə Azərbaycanın gələcəyinin layiqli təmsilçiləri olmağa qadir olan gənclik formalaşıb.”

Ə.Əhmədov vurğuladı ki, cənab Prezidentin gənclərlə bağlı siyasətinin mərkəzində dayanan əsas ideya onları layiqli vətəndaş, vətənpərvər insan kimi yetişdirməkdən ibarətdir: “Prezident İlham Əliyev ölkə gəncliyinin bu parametrlər üzrə formalaşıb inkişaf etməsi üçün bütün imkanlardan səmərəli şəkildə istifadə edir. Təhsil infrastrukturunun yaxşılaşdırılmasından tutmuş, təhsilin keyfiyyətinin yüksəldilməsinə qədər həyata keçirilən bütün işlər, islahatlar məhz bu məqsədin reallaşmasına xidmət edir. Eyni zamanda, gənclərimizin ölkəmizdən kənarda, müasir dünya səviyyəsində olan universitetlərdə təhsil almaları üçün geniş Dövlət Proqramının həyata keçirilməsi də bilavasitə Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşmaqdadır. Bu gün çoxlu sayda gənclərimiz yüksək reytinqli dünya universitetlərində təhsil alırlar. Onlar dünyanın inkişaf meyillərini, yüksək biliklərini Azərbaycana gətirirlər və bu biliklər əsasında ölkəmizin inkişafına əlavə təkanlar verəcək böyük qüvvədirlər. Həmin gənclərin böyük əksəriyyəti Vətənə qayıdaraq, ölkəmizin gələcəkdə daha da inkişaf etməsinə təkan verəcəklər. Eyni zamanda, onlar xaricdə ölkəmizi layiqincə təmsil edirlər.”









Baş nazirin müavini qeyd etdi ki, bu gün gənclər dövlət idarəçiliyinə geniş şəkildə cəlb edilirlər. Belə gənclər arasında YAP üzvlərinin də olması sevindirici haldır: “Biz Azərbaycanın gələcəyinə baxarkən bu gün əldə etdiyimiz səviyyədən gələcəkdə daha yüksək səviyyədə dayanmağa layiq olan Azərbaycanın formalaşmasını arzu edirik. Bu arzu bu gün gəncliyimizin istək və arzuları ilə tamamilə uyğun gəlir. Bu uyğunluq Azərbaycanın bundan sonra da sürətli inkişafının çox fundamental əsaslarından birini təşkil edir. YAP elə bir siyasi təşkilatdır ki, gənclər burada gələcək Azərbaycanın formalaşmasında yaxından iştirak edirlər. Gənclərimiz həmişə milli dəyərlərimizə, adət-ənənələrimizə sədaqəti ilə seçilirlər. Əgər dünya dəyişirsə, dəyərlər dəyişirsə, təbii ki, Azərbaycanın dəyərləri də müsbət mənada inkişaf edir. Həm milli, həm dünyəvi, həm də inkişaf edən dəyərləri mənimsəyən ən əhəmiyyətli sosial qrup gənclikdir. Amma milli dəyərlərimiz heç zaman unudulmamalıdır, azərbaycançılıq ideyaları öndə olmalıdır. Azərbaycanda gənclərin Vətən uğrunda fədakarlıq göstərməsi üçün hər cür şərait yaradılıb və inanırıq ki, gənclər ölkəmizin ərazi bütövlüyünün təmin olunması üçün hər şeyə hazırdır.”

Ə.Əhmədov gənclərə öz tövsiyələrini də verdi. Bildirdi ki, gənclər yüksək biliklərə sahib olmalı, ölkəmizin inkişafına öz töhfələrini verməlidirlər: “YAP-ın sıralarında təkcə say etibarilə çoxlu gənclər birləşməyib. Partiyamızın sıralarında, eyni zamanda, kifayət qədər yüksək intellekt sahibi olan, vətənpərvərliyi ilə seçilən, yüksək biliklər mənimsəmiş gənclər cəmləşib. YAP-ın gəncləri Azərbaycanın ictimai-siyasi həyatında yüksək fəallıq nümayiş etdirirlər. Azərbaycan gəncləri onlara gənclik gününü bəxş etmiş ulu öndər Heydər Əliyevin ideyalarını heç zaman unutmurlar, əksinə, fəaliyyətlərində bütünlüklə bu ideyalara istinad edirlər. Çünki bu ideyalar onların formalaşmasında bilavasitə başlıca rol oynayıb.”

Sonra YAP Gənclər Birliyinin yaradılmasında xidməti olan və partiyanın fəaliyyətində fəallığı ilə seçilən bir qrup şəxs, o cümlədən YAP icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov, Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev mükafatlandırıldılar.

Bununla yanaşı, fəal gənclər müxtəlif nominasiyalar üzrə təltif edildilər. YAP sıralarına yeni qoşulmuş gənc sənət adamlarına isə üzvlük vəsiqələri təqdim olundu. Tədbir konsert proqramı ilə davam etdirildi.

**Nail Rəhimzadə,**
**Vüsal Cahanov (foto),**
***“İki sahil”***